**Azərbaycan Respublikası**

**Xarici İşlər Nazirliyi**

Haraya: SBRL, SPRS, SROM, SMDR, SAFN, SBDP, SBQR,SBRN,SBXR,SHAQ,SKŞN, SVRŞ,SKYV, STFL,SSAR SLBL,SLND,SPRQ,SRİQ,SSOF,SSTH,STLN,SVLS,SVYN,SZQR (SBRS istisna olmaqla)
Çıxış nömrəsi: 5/12-1953/12/17 Tarix: 27.01.17
Sənəd necə göndərilir: Elektron *Poçt**
Səhifələrin sayı: 5 (beş) vərəq
Məhdudluğu qrifi: *Adi*
Təciliyi: Adi
Vacibliyi: Vacib

Azərbaycan Respublikası
diplomatik nümayəndəliklərinin rəhbərlərinə

Hörmətli diplomatik nümayəndəlik rəhbərləri,

Azərbaycan Respublikasının Belçikadakı Səfirliyindən aldığımız məlumatda bildirilir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Brüsseldə fəaliyyət göstərən "Caucasus İnterface" təşkilatı tərəfindən ərsəyə gətirilmiş və Belçika ictimaiyyətində geniş əks-səda doğurmuş "Ağdam: 5 fraqment" sənədli filminin digər Avropa paytaxtlarında nümayiş etdirilməsi səfirlik tərəfindən təklif edilir.

Azərbaycanlı məcburi köçkünlərin acı taleyindən bəhs edən bu film problemə dair Avropa tamaşaçısının qəbul edə biləcəyi tərzdə məlumatlar verir. (https://vimeo.eom/156431229, keçid sözü: Ivor).

"Caucasus İnterface" təşkilatının rəhbəri Mişel İvor ilə səfirlik tərəfindən keçirilmiş görüş zamanı həmsöhbət bildirmişdir ki, əvvəlcə Azərbaycanın xarici öikələrdəki bir neçə səfirliyi tərəfindən filmin nümayişinin təşkilinə maraq ifadə edilsə də, sonradan bu təşəbbüslər reallaşdırılmamış qalmışdır.

Bununla əlaqədar, Xocalı Soyqırımının 25-ci ildönümünün qeyd edilməsi zamanı mövzu üzrə çəkilmiş digər filmlərlə yanaşı, dipiomatik nümayəndəliklərimiz tərəfindən "Ağdam: 5 fraqment" filmindən istifadə edilməsi təklif edilir.

Qeyd edək ki, Mişel İvor Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqda lazımi bilgilərə malikdir və filmin təqdimatına dəvət edilə bilər.

Məsələnin nəzərdən keçirilməsini xahiş edirik.

Hörmətlə,

İctimai informasiya
və əlaqələr idarəsinin rəisi Cavanşir Məmmədov

İctimai əlaqələr şöbəsinin müdiri Yusif Vəzirov

İcraçı: Nuranə Əliyeva